AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

MALİYYƏ SEKTORUNUN DAYANIQLI
İNKİŞAFI DEPARTAMENTİ

# Dayanıqlı maliyyə üzrə sorğu NƏTİCƏLƏRİ

**2026-cı il**

Hesabat 2025-ci ilin sonuna olan məlumatlar əsasında hazırlanmışdır.

## Mündəricat


Sorğu haqqında ... 3

1. Maliyyə sektoru üzrə icmal ... 3

2. Bank sektoru ... 7

   2.1. Biznes strategiyası üzrə ... 7

   2.2. Korporativ idarəetmə üzrə ... 11

   2.3. Risk idarəetməsi üzrə ... 15

   2.4. Hesabatlılıq üzrə ... 18

3. Sığorta sektoru ... 19

   3.1. Biznes strategiyası üzrə ... 19

   3.2. Korporativ idarəetmə üzrə ... 21

   3.3. Risk idarəetməsi üzrə ... 24

   3.4. Hesabatlılıq üzrə ... 25

4. Kapital bazarı ... 25

   4.1. Biznes strategiyası üzrə ... 25

   4.2. Korporativ idarəetmə üzrə ... 27

   4.3. Risk idarəetməsi üzrə ... 30

   4.4. Hesabatlılıq üzrə ... 31

5. Nəticə və prioritetlər ... 31

   5.1. Biznes strategiyası üzrə ... 31

   5.2. Korporativ idarəetmə üzrə ... 32

   5.3. Risk idarəetməsi üzrə ... 33

   5.4. Hesabatlılıq üzrə ... 33

## Sorğu haqqında

Dayanıqlı maliyyə üzrə sorğu maliyyə institutlarında (banklar, sığorta şirkətləri və investisiya şirkətlərində) dayanıqlı maliyyə və ESİ prinsipləri üzrə mövcud yanaşmaların, institusional hazırlıq səviyyəsinin və həyata keçirilmiş tədbirlərin qiymətləndirilməsinə, habelə sektordan strukturlaşdırılmış məlumatların toplanmasına xidmət edir. 2025-ci il üzrə sorğu strategiya, korporativ idarəetmə, risk idarəetməsi və hesabatlılıq olmaqla 4 əsas bölmə üzrə formalaşdırılmış, ümumilikdə 47 sualı əhatə etmişdir. Əldə olunmuş nəticələr maliyyə sektoru üzrə ümumi vəziyyətin qiymətləndirilməsi ilə yanaşı, ayrı-ayrı sektorlar üzrə müqayisəli təhlilin aparılmasına imkan verir. Hesabatın yekun hissəsində əsas nəticələr ümumiləşdirilmiş və gələcək dövrdə nəzərdə tutulan tədbirlər təqdim edilmişdir.

2025-ci il üzrə hesabat sorğuda iştirak edən 22 bank, 16 sığorta və 12 investisiya şirkətinin cavabları əsasında hazırlanmışdır.

Sorğu 2023-cü ildən etibarən illik əsasda keçirilir və maliyyə sektorunda dayanıqlı maliyyə və ESİ prinsiplərinin tətbiq səviyyəsinin qiymətləndirilməsi, eləcə də bu sahədə irəliləyişin dinamik izlənilməsi məqsədini daşıyır. Qiymətləndirmənin nəticələri Mərkəzi Bankın dayanıqlı maliyyənin inkişafına dair siyasət və təşəbbüslərinin formalaşdırılmasında nəzərə alınır. Bununla yanaşı, dayanıqlı maliyyə istiqamətində institusional və bazar inkişafına uyğun olaraq, sorğu aləti mütəmadi təkmilləşdirilir, aktual ehtiyac və prioritetləri əks etdirmək üçün yeni suallar əlavə olunur.

## 1. Maliyyə sektoru üzrə icmal

2025-ci ildə maliyyə sektorunda dayanıqlı maliyyə və ESİ amillərinin inteqrasiyası daha da dərinləşmişdir. Bankların 77%-i, sığorta şirkətlərinin 38 %-i, investisiya şirkətlərinin 25%- i Mərkəzi Bankın Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsinə uyğunlaşma planına malikdir (ötən il bu göstərici müvafiq olaraq 71%, 6%, 0% təşkil etmişdir). Ümumilikdə, bank sektorunda dayanıqlı maliyyə həm institusional çərçivə, həm də praktik tətbiq üzrə daha irəli səviyyədə formalaşmışdır.

Maliyyə institutları iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsini əhəmiyyətli hesab edir. Belə ki, maliyyə institutlarının 90%-i belə risklərin idarə edilməsini orta və yuxarı əhəmiyyətli hesab edir.

**Qrafik 1. Maliyyə institutları tərəfindən maliyyə bazarlarında iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsinin əhəmiyyətinin qiymətləndirilməsi**




**İqlim dəyişmələri və ESİ risklərinin təsiri sektor tərəfindən, əsasən, uzunmüddətli perspektivdə daha yüksək səviyyədə qiymətləndirilir**. Sorğu nəticələrinə əsasən qısamüddətli dövrdə təsirlər daha çox aşağı, ortamüddətli dövrdə orta, uzunmüddətli perspektivdə isə yüksək səviyyədə qiymətləndirilmişdir. Bununla yanaşı, ötən ilin nəticələri ilə müqayisədə ortamüddətli dövr üzrə təsir gözləntilərində müəyyən artım müşahidə olunur **(Qrafik 2).**

**Qrafik 2. Maliyyə institutlarının iqlim dəyişmələri və ESİ risklərinin təsirləri üzrə gözləntiləri**




**Dayanıqlı maliyyənin tətbiqinə təsir edən əsas amillər sırasında institusional potensial və məlumatlılıqla bağlı məsələlər daha çox ön plana çıxmışdır**. Nəticələrə əsasən ixtisaslı kadr çatışmazlığı, mövzu üzrə məlumatlılığın kifayət qədər olmaması, dayanıqlı maliyyə məhsul və xidmətlərinə tələbin məhdudluğu, habelə bu sahədə rentabelliklə bağlı tərəddüdlər əsas maneələr sırasında qalır **(Qrafik 3)**. Bununla yanaşı, nəzarət orqanının tələbinin olmaması əvvəlki illə müqayisədə nisbətən zəif maneə kimi qiymətləndirilmişdir. Bu isə ESİ sahəsində tənzimləmənin genişləndiyini, habelə dayanıqlı maliyyə gündəliyinin yalnız tənzimləyici gözlənti ilə deyil, həm də bazar və institusional uyğunlaşma zərurəti kimi qəbul edildiyini göstərir.

**Qrafik 3. Dayanıqlı maliyyənin tətbiqi üzrə maliyyə institutları tərəfindən bildirilən əsas maneələr**




**Nəticələr maliyyə sektorunda gender bölgüsü üzrə ümumi mənzərənin ötən illə müqayisədə əsaslı şəkildə dəyişmədiyini göstərir**. Belə ki, sektor üzrə işçi heyətinin 40%-ni, son 12 ayda işə qəbul olunanların isə 34%-ni qadınlar təşkil etmişdir.

**Bank sektoru dayanıqlı maliyyə gündəliyinin nisbətən yetkin formalaşdığı alt sektor kimi seçilir.** Banklarda ESİ amillərinin strateji sənədlərə, məhsul yanaşmalarına və idarəetmə mexanizmlərinə inteqrasiyası maliyyə sektorunun digər seqmentləri ilə müqayisədə daha geniş yayılmışdır. Xüsusilə, dayanıqlı maliyyə üzrə daxili yanaşmaların formalaşdırılması, ekoloji və sosial məsələlərin qərarvermə proseslərində nəzərə alınması, habelə korporativ idarəetmə səviyyəsində bu mövzuya diqqətin artması bank sektorunda daha əhəmiyyətli səviyyədə hiss olunur. Bununla yanaşı, karbon emissiyalarının ölçülməsi, risk iştahası limitlərinin müəyyən edilməsi, stres-test çərçivələrinin geniş tətbiqi və məlumat bazasının daha da zənginləşdirilməsi istiqamətində bank sektorunda mərhələli inkişaf davam edir.

**Sığorta sektoru və investisiya şirkətlərində ESİ amillərinin strategiya və daxili siyasət sənədlərində, habelə maliyyə məhsullarının formalaşdırılması**

**prosesində nəzərə alınması istiqamətində müəyyən irəliləyiş müşahidə olunmuşdur.** Dayanıqlılıq amillərinin sığorta və kapital bazarlarının tənzimləyici çərçivəsinə inteqrasiyası bu sektorlarda dayanıqlı maliyyənin tətbiqinin sürətləndirilməsini şərtləndirəcəkdir.

## 2. Bank sektoru

### 2.1. Biznes strategiyası üzrə

**Bank sektorunda Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsinə uyğunlaşma və ESİ amillərinin strateji planlaşdırma prosesinə daxil edilməsi istiqamətində irəliləyiş müşahidə edilir.** Bankların əksəriyyəti (17 bank) Mərkəzi Bankın 2023–2026-cı illər üzrə “Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi”nə uyğunlaşma ilə bağlı planının mövcud olduğunu qeyd etmişdir (Qrafik 4). Bu dinamika banklar tərəfindən Yol Xəritəsi çərçivəsində fəaliyyətlərin daha strukturlaşdırılmış şəkildə planlaşdırılmasını göstərir. Bununla yanaşı, bankların əksəriyyəti tərəfindən ESİ amillərinin təşkilatın uzunmüddətli biznes strategiyasına inteqrasiya edildiyi bildirilmişdir. Nəticələr ESİ gündəliyinin strategiya səviyyəsində mövqeyinin gücləndiyini, bunun davam edən proses olduğunu nümayiş etdirir. Əlavə olaraq, bankların əhəmiyyətli hissəsi dayanıqlı maliyyə portfelinin formalaşdırılmasını 2026-cı il üzrə biznes planına daxil etmişdir. Bununla belə, dayanıqlı maliyyənin biznes planlaşdırılması proseslərinə inteqrasiyasının dərinliyi banklar üzrə fərqli mərhələdədir.

**Qrafik 4. Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsinə uyğunlaşma planı hazırlamış bankların sayı**




**ESİ risklərinin və imkanlarının biznes qərarvermə proseslərinə daxil edilməsi bankların böyük hissəsində təmin olunmuşdur.** Bu istiqamətlərə kredit məhsullarının yaradılması, ekoloji amillərin kreditlərin qiymətləndirilməsi prosesində nəzərə alınması, bank tətbiqləri üzərindən təqdim olunan investisiya xidmətlərində yaşıl investisiya seçimlərinin formalaşdırılması və müştərilərə təqdim edilməsi kimi tədbirlər, həmçinin qeyri-kredit məhsullarının yaradılması daxildir (Qrafik 5). Banklar tərəfindən təklif olunan dayanıqlı maliyyə məhsulları daha çox enerjiyə qənaət və alternativ enerji istiqamətində, karbon qazı emissiyasının azaldılması, su ehtiyatlarının səmərəli istifadəsi və dayanıqlı kənd təsərrüfatı məhsullarını əhatə etmişdir.

**Qrafik 5. Ekoloji risk və imkanların qərarvermə proseslərinə inteqrasiya olunduğu biznes istiqamətləri**




**Sosial məsələlər üzrə prioritetlərin strategiya sənədlərində əks etdirilməsi bankların əksəriyyətində qeydə alınmışdır.** Bankların 60%-i sosial məsələlər üzrə (gender bərabərliyi, fiziki məhdudiyyətli şəxslərə münasibətdə daxili siyasət və s.) strateji prioritetləri rəsmi sənədlərdə müəyyən etdiyini bildirmişdir. Bununla yanaşı, sosial amillərin biznes qərarverməsinə inteqrasiyası daha çox məhsul səviyyəsində özünü göstərir və bu inteqrasiya, əsasən, kredit və qeyri-kredit məhsullarının yaradılması üzrə qeydə alınmışdır **(Qrafik 6)**.

**Qrafik 6. Sosial komponentlərin qərarvermə proseslərinə inteqrasiya olunduğu biznes istiqamətləri**




Qərarvermə proseslərinə inteqrasiyanın məhsul müstəvisində baxıldıqda sosial məqsədli maliyyə məhsullarının, əsasən, həssas əhali qrupları, təhsil, səhiyyə və qadın sahibkarlığının dəstəklənməsi istiqamətlərində formalaşdığı müşahidə olunur **(Qrafik 6.1)**

**Qrafik 6.1. Sosial məqsədli maliyyə məhsulları**



**Dayanıqlı məhsullar üzrə stimullaşdırıcı differensiasiyanın tətbiqinə bir sıra banklarda başlanılmışdır**. Mövcud təcrübə daha çox faiz şərtlərinə endirim mexanizmi üzərindən həyata keçirilir (45% bank), qeyri-faiz şərtləri üzrə güzəştlər isə daha məhdud sayda bank tərəfindən tətbiq olunur (27% bank).

**Dayanıqlı inkişafla bağlı çoxtərəfli inkişaf bankları və fondları ilə müxtəlif istiqamətli əməkdaşlıq davam etməkdədir**. Banklar tərəfindən beynəlxalq tərəfdaşlarla əməkdaşlıq, əsasən, təlimlər, konsultasiya dəstəyi və vəsaitlərin cəlbi istiqamətlərində həyata keçirilir. Əməkdaşlıq, əsasən, çoxtərəfli inkişaf bankları və dayanıqlı maliyyə üzrə ixtisaslaşmış fondlarla aparılır. Mövcud mənzərə banklarda dayanıqlı maliyyə sahəsində institusional potensialın gücləndirilməsi, metodoloji dəstəyin alınması və maliyyə resurslarına çıxışın genişləndirilməsi istiqamətində xarici tərəfdaşlarla əməkdaşlığın mühüm alət kimi formalaşdığını göstərir.

**Resurslardan səmərəli istifadə ilə bağlı hədəflərin müəyyən edilməsi praktikası geniş tətbiq edilir**. Sorğu nəticələrinə əsasən iştirakçı bankların hamısı bu sahə üzrə ən azı bir istiqamətdə hədəf müəyyən etmişdir. Müvafiq hədəflərə daha çox kağız istifadəsinə qənaət, enerjiyə qənaət və su sərfiyyatının azaldılması istiqamətlərində rast gəlinir.

Bankların iqlim dəyişmələri və ESİ riskləri ilə bağlı yanaşmasının müştərilərə çatdırılması isə müxtəlif kommunikasiya kanalları vasitəsilə həyata keçirilir. Bu istiqamətdə daha çox onlayn kanallar, müştərinin ön ofisə müraciəti zamanı məlumatlandırma, habelə təlimlər və digər vasitələr qeyd olunmuşdur.

## 2.2. Korporativ idarəetmə üzrə

**Banklarda ESİ prinsiplərinin korporativ idarəetməyə inteqrasiyası istiqamətində müsbət dinamika müşahidə olunur**. İdarə Heyəti səviyyəsində ESİ üzrə cavabdeh şəxsin müəyyən edildiyini bildirən bankların sayı artaraq 67%-ə yüksəlmişdir. Bununla yanaşı, ESİ məsələlərinə cavabdeh ayrıca struktur vahidinin (şöbə/bölmə/departament) formalaşdırılması, habelə funksiyaların işçi qrup formatında təşkili kimi yanaşmalar da banklar tərəfindən tətbiq olunur **(Qrafik 7).**

Müşahidə Şurası səviyyəsində dayanıqlı maliyyə investisiyalarının həyata keçirilməsi və iqlim dəyişmələri ilə bağlı ESİ risklərinin idarə edilməsi üzrə institusional yanaşmalar formalaşmaqdadır. Belə ki, iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsi üzrə Müşahidə Şurası səviyyəsində müvafiq vəzifə və məsuliyyət bölgüsünün müəyyən edildiyi 12 bank, dayanıqlı maliyyə investisiyaları üzrə vəzifə, səlahiyyət və məsuliyyət bölgüsünün müəyyən edildiyi 10 bank tərəfindən qeyd edilmişdir. Müşahidə Şurası üzvlərinin iqlim dəyişmələri, ESİ riskləri və əlaqəli imkanlar üzrə təlimlərdə iştirakı üzrə ötən illə müqayisədə **müsbət dinamika müşahidə olunur** və **12 bank** tərəfindən Müşahidə Şurası üzvlərindən ən azı birinin bu mövzu üzrə təlimlərdə iştirak etdiyi qeyd edilmişdir.

**Qrafik 7. Banklarda ESİ üzrə idarəetmə mexanizmləri**




**ESİ amillərinin bankların daxili qaydalarına inteqrasiyası müxtəlif istiqamətlər üzrə həyata keçirilmişdir.** Ən çox qeyd olunan inteqrasiya sahələri tövsiyə edilməyən fəaliyyətlər üzrə daxili qaydalar (10 bank) və etik davranış qaydaları (10 bank) olmuşdur. Bununla yanaşı, ESİ amillərinin satınalma siyasətlərinə inteqrasiyası 6 bank, mükafatlandırma mexanizmlərinə inteqrasiyası isə 3 bank tərəfindən bildirilmişdir. Bununla yanaşı, **"digər"** kateqoriyası üzrə 9 bank tərəfindən ESİ amillərinin kreditləşmə

qərarlarının verilməsi zamanı nəzərə alınması, korporativ məsuliyyət siyasətinin formalaşdırılması, habelə nüfuz riskinin qiymətləndirilməsinə dair metodoloji rəhbərliyin hazırlanması kimi əlavə tətbiqlər göstərilmişdir (Qrafik 8).

**Qrafik 8. ESİ amillərinin bankların daxili qaydalarına inteqrasiyası**




**Bank sektorunda qadınların təmsilçiliyi üzrə ümumi mənzərə əvvəlki ilin nəticələri ilə oxşardır**. Qadınların ümumi işçi heyətində, son 12 ayda işə qəbul olunanlar arasında və idarəetmə səviyyələri üzrə təmsilçiliyi üzrə nəticələr göstərir ki, iştirak daha çox ümumi məşğulluq və orta rəhbərlik səviyyəsində cəmlənir, yuxarı idarəetmə pillələrinə doğru isə azalır. Bankların böyük əksəriyyəti tərəfindən Müşahidə Şurası və ya İdarə Heyəti üzvlərinin təyinatı zamanı gender müxtəlifliyinin nəzərə alınmasına dair tələbin daxili sənədlərdə yer almadığı bildirilmişdir (Qrafik 9).

**Qrafik 9. Banklarda qadın əməkdaşların təmsilçiliyi**




**Bankların əksəriyyəti ESİ prinsiplərinin həyata keçirilməsi, siyasət və strategiyaların icrası, habelə hədəflərə nail olmanın qiymətləndirilməsi məqsədilə daxili audit funksiyasını gücləndirməyə davam edir**. Belə ki, 16 bank tərəfindən ESİ ilə bağlı siyasət, strategiya, hədəflərin və digər müvafiq tədbirlərin həyata keçirilməsinin yoxlanılmasının 2026-cı il üzrə daxili audit planına daxil edildiyi qeyd edilmişdir.

**Bankların böyük əksəriyyəti ESİ gündəliyinin institusional səviyyədə dəstəklənməsi istiqamətində tədbirlər həyata keçirir**. Sorğu nəticələrinə əsasən bankların əksəriyyəti iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsi, fürsətlərin qiymətləndirilməsi, habelə dayanıqlı maliyyə alətləri üzrə adekvat ixtisasa malik insan resurslarının formalaşdırılması məqsədilə təlim proqramının müəyyən edildiyini bildirmişdir. Son 12 ay üzrə bir işçiyə düşən orta illik təlim həcmi 10,5 saat, ESİ ilə bağlı təlim büdcəsinin ümumi təlim büdcəsində payı isə 5% təşkil etmişdir. Ümumilikdə isə ESİ, etik davranış və əmək hüquqları istiqamətində təlimlərin keçirilməsi banklar üzrə daha geniş tətbiq olunur. 2025-ci ildə Mərkəzi Bank tərəfindən beynəlxalq tərəfdaşlarla birgə ESİ risklərinin idarə edilməsi, taksonomiyanın tətbiqi, emissiyaların ölçülməsi və

hesabatlılıq mövzularında bankların iştirakı ilə çoxşaxəli təlimlər keçirilmişdir. Sözügedən tədbirlər bank sektorunda bilik və bacarıqların gücləndirilməsinə, metodoloji hazırlığın dərinləşdirilməsinə və tənzimləyici gözləntilərə uyğunlaşmanın dəstəklənməsinə töhfə verir.

**Banklarda inklüziv əmək mühitinin formalaşdırılması istiqamətində tədbirlər həyata keçirilir.** Fiziki məhdudiyyətli əməkdaşlar üçün əlçatan mühitin yaradılması və iş prosesinin uyğunlaşdırılması üzrə tədbirlər daha çox infrastruktur həlləri və iş vaxtı üzrə çeviklik vasitəsilə təmin olunur. Sorğu nəticələrinə əsasən banklarda daha çox fiziki infrastrukturun uyğunlaşdırılması (rampa, lift və s.) və iş vaxtı üzrə çeviklik tətbiq edilir. Fiziki məhdudiyyətli əməkdaşların ümumi işçi heyətində və son 12 ayda işə qəbul olunanlar arasında payı 2% təşkil etmişdir. Bununla yanaşı, 17 bank tərəfindən işçi rifahı və əmək şəraiti üzrə daxili siyasətin mövcud olduğu bildirilmişdir.

## 2.3. Risk idarəetməsi üzrə

**Banklarda iqlim dəyişmələri ilə bağlı risklərin müəyyənləşdirilməsi istiqamətində irəliləyiş müşahidə olunur və bu dinamika daha çox keçid riskləri üzrə nəzərə çarpır.** Nəticələrə əsasən 10 bank tərəfindən keçid, 5 bank tərəfindən isə fiziki risklərin müəyyən edildiyi bildirilmişdir. Bununla yanaşı, banklar iqlim risklərinə daha həssas hesab edilən iqtisadi sektorların və fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi üzrə də yanaşmalar formalaşdırmağa başlamışdır. Bu çərçivədə daha çox rast gəlinən sahə enerji, kənd təsərrüfatı, nəqliyyat və logistika, eləcə də tikinti və daşınmaz əmlak sektorları olmuşdur (Qrafik 10). Bu mənzərə banklarda risklərin identifikasiyası istiqamətində ilkin institusional yanaşmaların formalaşdığını, fiziki və keçid risklərinin daha sistemli qiymətləndirilməsi üçün metodoloji alətlərin tətbiqinin genişlənməkdə olduğunu göstərir. İqlim dəyişmələri ilə bağlı risklərin idarə edilməsinin 2026-cı ildən etibarən tənzimləyici tələb kimi müəyyən edilməsi, habelə Mərkəzi Bank tərəfindən ESİ Risk Radarı alətinin hazırlanması banklarda iqlim dəyişmələrindən yaranan risklərin idarə edilməsinin yeni keyfiyyət müstəvisinə daxil olmasını şərtləndirəcəkdir. Qeyd edilən amillər banklar tərəfindən iqlim risklərinin daha strukturlaşdırılmış qaydada qiymətləndirilməsi, qərarvermə proseslərinə inteqrasiyası və risk əsaslı yanaşmanın gücləndirilməsi baxımından əhəmiyyətlidir.

**Qrafik 10. İqlim risklərinə həssas iqtisadi sektorların müəyyənləşdirilməsi**




**ESİ risklərinin idarə edilməsi üzrə alətlərin formalaşdırılması və qərarverməyə inteqrasiyası banklar arasında mərhələli şəkildə inkişaf edir.** Banklarda ESİ risklərinin idarə edilməsi, o cümlədən bank müştərilərinin ESİ qiymətləndirməsi, monitorinq və ESİ tədbirlər planının müəyyən edilməsi üzrə siyasət və prosedurlara rast gəlinir **(Qrafik 11).**

**Qrafik 11. ESİ risklərinin biznes qərarverməsinə inteqrasiyası məqsədilə müvafiq təlimatların və alətlərin hazırlanması**




**ESİ riskləri üzrə risk iştahası çərçivələrinin formalaşdırılması və stres-test alətlərinə inteqrasiya istiqamətində banklarda mərhələli inkişaf müşahidə olunur.** Bir sıra banklarda ESİ riskləri üzrə risk iştahası yanaşmalarının, habelə stres-test alətlərinə inteqrasiyasının artıq müəyyən edildiyi, digər banklarda isə bu istiqamətdə yanaşmaların formalaşdırılması prosesinin davam etdiyi görünür. Sorğu nəticələri bank sektorunda iqlim və ESİ risklərinin daha qabaqcıl risk idarəetməsi alətlərinə daxil edilməsi prosesinin gücləndiyini göstərir. Bununla yanaşı, məlumat bazasının genişlənməsi və metodoloji çərçivələrin dərinləşdirilməsi ilə növbəti dövrdə bu istiqamətdə tətbiqin daha da sistemli xarakter alacağı gözlənilir. Bu baxımdan, məlumat infrastrukturunun təkmilləşdirilməsi və mərhələli həllərin irəli aparılması məqsədilə aidiyyəti dövlət qurumları və Mərkəzi Bank tərəfindən Yol Xəritəsi hazırlanmışdır. Sözügedən tədbirlərin növbəti illərdə ssenari analizi və stres-test yanaşmalarının daha əsaslı şəkildə inkişafına töhfə verəcəyi gözlənilir.

## 2.4. Hesabatlılıq üzrə

**Banklarda dayanıqlılıqla bağlı strategiya, risklər, imkanlar və əlaqəli məlumatların açıqlanması istiqamətində müəyyən irəliləyiş müşahidə olunur.** Açıqlama təqdim edən banklar arasında daha çox ictimaiyyətə açıqlanan ayrıca dayanıqlı maliyyə və ya ESİ hesabatı formatına üstünlük verildiyi müşahidə olunur. Bununla yanaşı, bir sıra banklarda dayanıqlılıq məlumatlarının illik maliyyə hesabatına inteqrasiyası, dövri mətbuata açıqlamaları və ictimai kommunikasiya yanaşmalarına da rast gəlinir (**Qrafik 12).**

**Qrafik 12. ESİ Strategiyası və fəaliyyətin açıqlanması vasitələri**




**Bir sıra banklar 1-ci, 2-ci və 3-cü əhatə dairəsi üzrə emissiyaların açıqlanmasına başlamışdır.** Belə ki, 6 bank 1-ci və 2-ci əhatə dairəsi üzrə emissiyaların, 3 bank isə 3-cü əhatə dairəsi üzrə emissiyaların ölçülməsini həyata keçirmişdir. Bununla yanaşı, çox sayda bank tərəfindən növbəti dövrdə karbon emissiyalarının ölçülməsi və açıqlanması üzrə fəaliyyətlərin planlaşdırıldığı bildirilmişdir. Mərkəzi Bank tərəfindən dayanıqlılıqla bağlı açıqlama tələbləri tənzimləyici çərçivəyə daxil edilmişdir və banklar tərəfindən dayanıqlılıqla bağlı məlumatların 2027-ci ildən etibarən açıqlanması nəzərdə tutulur. Bu isə qarşıdakı dövrdə sektorda açıqlamaların daha vahid və müqayisə olunan çərçivədə təqdim edilməsini təmin edəcəkdir.

# 3. Sığorta sektoru

## 3.1. Biznes strategiyası üzrə

**ESİ amillərinin sığorta şirkətlərinin uzunmüddətli biznes strategiyasına inteqrasiyası istiqamətində müsbət trend izlənməkdədir (Qrafik 13).** Sığorta şirkətlərinin əksəriyyəti ESİ amillərinin uzunmüddətli biznes strategiyasına inteqrasiya edildiyini qeyd etmişdir. Sorğu cavabları sığorta sektorunda dayanıqlı maliyyə gündəliyinin strateji planlaşdırma prosesinə inteqrasiyasında müsbət tendensiyanı ifadə edir.

**Qrafik 13. ESİ amillərinin sığorta şirkətlərinin uzunmüddətli biznes strategiyasına inteqrasiyası**




**ESİ risklərinin və imkanlarının biznes istiqamətlərinə inteqrasiyası bir sıra sığorta şirkətlərində tətbiq olunmur.** Belə ki, məhdud sayda sığorta şirkətlərində ESİ risk və imkanların biznes istiqamətinə inteqrasiyası baş verir. Belə biznes istiqamətlərinə sığorta məhsullarının yaradılması, xəzinədarlıq fəaliyyəti və investisiya məhsullarının formalaşdırılması daxildir **(Qrafik 14).**

**Qrafik 14. Ekoloji risk və imkanların qərarvermə proseslərinə inteqrasiya olunduğu biznes istiqamətləri**




**Sosial məsələlərin strateji sənədlərdə əks olunması nisbətən daha geniş müşahidə edilir**. Sorğu nəticələrinə əsasən sığorta şirkətlərində gender bərabərliyi, fiziki məhdudiyyətli şəxslərə münasibət və digər sosial məsələlər üzrə prioritetləri rəsmi sənədlərdə müəyyən etdiyi bildirilmişdir. Sosialyönümlü məhsul və təşəbbüslər daha çox sosial və iqtisadi baxımdan həssas əhali qruplarına yönəlmiş həllər ətrafında cəmlənmişdir. Təhsil istiqaməti üzrə qeyd edilən təşəbbüslər isə, əsasən, təhsil alan şəxslər üçün maliyyə əlçatanlığını dəstəkləyən yanaşmalarla bağlı olmuşdur. Bu çərçivədə bəzi respondentlər tərəfindən “Təhsil Tələbə Krediti” layihəsi ilə əlaqəli sığorta təminatları üzrə vahid tarif yanaşmasının və komissiyasız şərtlərin tətbiqi kimi nümunələr göstərilmişdir. Ayrı-ayrı hallarda səhiyyə məqsədli yanaşmalar və sosial layihələrə uyğunlaşdırılmış sığorta şərtləri də qeyd olunmuşdur **(Qrafik 15).**

**Qrafik 15. Sosial məqsədli maliyyə məhsulları**




**Sığorta sektorunda ətraf mühit və sosial məsələlər üzrə beynəlxalq əməkdaşlıq ilkin inkişaf mərhələsindədir.** Beynəlxalq əməkdaşlıq istiqamətləri, əsasən, təlim və metodoloji dəstək xarakteri daşımış, ayrı-ayrı hallarda isə karbon emissiyalarının ölçülməsi ilə bağlı yanaşmaların tətbiqi məqsədilə beynəlxalq təşəbbüs və platformalarla təcrübə mübadiləsini əhatə etmişdir. Müştərilərlə kommunikasiya baxımından isə iqlim dəyişmələri və ESİ riskləri ilə bağlı məlumatların daha çox onlayn kanallar və ön ofis vasitəsilə çatdırıldığı müşahidə olunur.

**Sığorta sektorunda resurs səmərəliliyi tədbirləri, əsasən, material və kommunal resurslardan istifadənin optimallaşdırılması üzrə həyata keçirilmişdir.** Bu çərçivədə daha çox kağız istifadəsinin azaldılmasına yönəlmiş hədəflər müəyyən edilmiş, enerji və su sərfiyyatına qənaət tədbirləri isə nisbətən məhdud şəkildə tətbiq edilmişdir. Bu nəticə resurs səmərəliliyi yanaşmalarının sektor üzrə daha çox praktiki qənaət tədbirləri səviyyəsində tətbiq olunduğunu göstərir.

## 3.2. Korporativ idarəetmə üzrə

**Sığorta sektorunda dayanıqlı maliyyə üzrə idarəetmə çərçivəsinin formalaşdırılması istiqamətində ötən illə müqayisədə müəyyən irəliləyiş müşahidə olunur.** Belə ki, dayanıqlı maliyyə ilə bağlı idarəetmə çərçivəsinə malik sığorta

şirkətlərinin sayı əvvəlki illə müqayisədə artmışdır. Bəzi şirkətlərdə İdarə Heyəti səviyyəsində cavabdeh şəxsin müəyyən edilməsi və ESİ məsələlərinə cavabdeh ayrıca struktur vahidinin yaradılması kimi yanaşmalar da mövcuddur. Bu nəticə sığorta sektorunda dayanıqlı maliyyə üzrə idarəetmə çərçivəsinin formalaşdığını göstərir **(Qrafik 16).**

**Qrafik 16. Sığorta sektorunda dayanıqlı maliyyə ilə bağlı idarəetmə çərçivəsi**




**Sığorta sektorunda ESİ amillərinin idarəetmə və nəzarət mexanizmlərinə inteqrasiyası məhdud səviyyədədir.** Bu istiqamətdə dayanıqlı maliyyə investisiyaları, eləcə də iqlim və ESİ risklərinin idarə edilməsi üzrə Direktorlar Şurası səviyyəsində vəzifə, səlahiyyət və məsuliyyət bölgüsünün müəyyən edilməsinə, Direktorlar Şurası üzvlərinin ESİ mövzuları üzrə təlimlərdə iştirakına, ESİ amillərinin daxili qayda və prosedurlara inteqrasiyasına, daxili audit planlarında ESİ ilə bağlı siyasət, strategiya və hədəflərin icrasının nəzərə alınmasına rast gəlinir. Ümumilikdə, əldə olunan cavablar ESİ məsələlərinin korporativ idarəetmə sistemində nəzərə alınmasının, əsasən, ilkin və keçid mərhələsində olduğunu göstərir.

**Sığorta sektorunda qadınların təmsilçiliyi ümumi məşğulluq və orta rəhbərlik səviyyəsində nisbətən yüksək olsa da, daha yuxarı idarəetmə səviyyələrində daha aşağıdır.** Sorğu nəticələrinə əsasən qadınların ümumi işçi sayında və departament/şöbə

rəhbərləri səviyyəsində payı daha yüksək olmuş, Direktorlar Şurası və İdarə Heyəti səviyyəsində isə bu göstəricilər daha aşağı səviyyədə qeydə alınmışdır. Ötən ilin nəticələri ilə müqayisədə Direktorlar Şurasında və İdarə Heyətində qadınların payında artım müşahidə olunur. Bununla yanaşı, son 12 ayda işə qəbul olunan əməkdaşlar arasında qadınların payının əvvəlki illə müqayisədə azalması müşahidə edilir. Eyni zamanda, ali idarəetmə orqanlarına təyinat zamanı gender müxtəlifliyinin nəzərə alınmasına dair tələbin daxili sənədlərdə əks olunması təcrübəsinə bir sıra sığorta şirkətlərində rast gəlinir **(Qrafik 17).**

**Qrafik 17. Sığorta sektorunda müxtəlif idarəetmə səviyyələrində qadın əməkdaşların payı**




**İnsan kapitalı və inklüziv iş mühiti istiqamətində sığorta sektorunda müəyyən institusional yanaşmalar müşahidə olunur.** Sorğu nəticələrinə əsasən son 12 ay üzrə bir işçiyə düşən orta illik təlim həcmi 5.4 saat, ESİ ilə bağlı təlim büdcəsinin ümumi təlim büdcəsində payı isə orta hesabla 2% təşkil etmişdir. Bu göstəricilər ESİ gündəliyinin təlim və kadr hazırlığı sahəsində müəyyən dərəcədə əksini tapdığını, lakin mövzunun sektor üzrə daha geniş institusional çərçivədə dərinləşdirilməsinə ehtiyac olduğunu göstərir. Bununla yanaşı, ESİ, etik davranış, əmək hüquqları, iqlim və dayanıqlı maliyyə alətləri

üzrə təlim proqramlarının bəzi şirkətlərdə tətbiqi, eləcə də işçi rifahı və əmək şəraiti üzrə ayrıca siyasətin və fiziki məhdudiyyətli əməkdaşlar üçün müəyyən uyğunlaşdırmaların tətbiqinə rast gəlinir. Ümumilikdə, əldə olunan nəticələr insan kapitalı və inklüzivlik gündəliyinin sığorta sektoru üzrə inkişaf etməkdə olan istiqamətlərdən biri olduğunu göstərir.

## 3.3. Risk idarəetməsi üzrə

**İqlim dəyişmələri və ESİ risklərinin risk kateqoriyaları üzrə müəyyənləşdirilməsi sığorta şirkətləri üzrə fərqli səviyyədə formalaşmışdır**. Sorğu nəticələrinə əsasən 5 sığorta şirkəti tərəfindən fiziki, 3 şirkət tərəfindən isə keçid risklərinin müəyyən edildiyi bildirilmişdir. Bu nəticə sığorta sektorunda iqlim və ESİ risklərinin tanınması istiqamətində müəyyən addımların atıldığını, lakin yanaşmaların hələ bütün sektor üzrə sistemli xarakter almadığını göstərir.

**ESİ risklərinin biznes qərarverməsinə inteqrasiyası məqsədilə daxili alət və təlimatların formalaşdırılması istiqamətində ötən illə müqayisədə irəliləyiş müşahidə olunur.** Bir sıra sığorta şirkətləri tərəfindən monitorinq şablonlarının, əsas fəaliyyət göstəricilərinin və ya əsas dayanıqlılıq hədəflərinin, ESİ tədbirlər planının, ESİ risklərinin idarə olunması üzrə təlimatın mövcud olduğu qeyd edilmişdir. Bu göstəricilər ötən illə müqayisədə müəyyən müsbət dinamikanın formalaşdığını göstərir.

**Sığorta sektorunda fiziki və keçid risklərinə daha çox məruz qala biləcək iqtisadi sektor və fəaliyyət növlərinin müəyyənləşdirilməsi üzrə təcrübə mərhələli şəkildə formalaşır.** Enerji sektoru, kənd təsərrüfatı, tikinti və daşınmaz əmlak, eləcə də nəqliyyat və logistika ilə bağlı fəaliyyətlər də iqlim risklərinə daha həssas istiqamətlər sırasında göstərilmişdir **(Qrafik 18)**.

**Qrafik 18. İqlim risklərinə həssas iqtisadi sektorların müəyyənləşdirilməsi**




## 3.4. Hesabatlılıq üzrə

**Sorğu nəticələri sığorta sektorunda dayanıqlılıqla bağlı məlumatların açıqlanması təcrübəsinin ilkin formalaşma mərhələsində olduğunu göstərir.** Bu məlumatların açıqlanmasına məhdud sayda sığorta şirkətlərində rast gəlinir. Ümumilikdə, sığorta sektorunda dayanıqlılıq və emissiya məlumatlarının açıqlanmasının institusional hesabatlılıq praktikasına çevrilməsi, əsasən, növbəti mərhələdə gözlənilir. Belə ki, dayanıqlı sığorta üzrə tənzimləyici tələblərin müəyyən edilməsi məlumatların açıqlanması praktikasının genişlənməsinə təkan verəcəkdir.

# 4. Kapital bazarı

## 4.1. Biznes strategiyası üzrə

**Kapital bazarında ESİ amillərinin strateji planlaşdırma sənədlərinə inteqrasiyası üzrə ilkin müsbət trendlər müşahidə edilir.** Bir sıra investisiya şirkətlərində Mərkəzi Bankın 2023–2026-cı illər üzrə "Dayanıqlı Maliyyə üzrə Yol

Xəritəsi”nə uyğunlaşma ilə bağlı plan hazırlanmışdır. Ümumilikdə, ESİ amillərinin təşkilatın uzunmüddətli biznes strategiyasına inteqrasiyası üzrə müsbət tendensiya müşahidə olunur. Belə ki, 5 investisiya şirkəti ESİ amillərinin biznes strategiyasına inteqrasiya edildiyini və 4 şirkət bu istiqamətdə hazırlıq işlərinin aparıldığını bildirmişdir **(Qrafik 19).**

**Qrafik 19. ESİ amillərinin biznes strategiyasına inteqrasiyası**




**İnvestisiya şirkətlərində bir sıra dayanıqlı maliyyə məhsulları və maliyyələşmə fəaliyyətlərinin tətbiqinə rast gəlinir.** Mövcud təşəbbüslərə karbon emissiyasının azaldılması, enerjiyə qənaət, su ehtiyatlarından səmərəli istifadə daxildir **(Qrafik 20).**

**Qrafik 20. Ekoloji və yaşıl istiqamətlər üzrə maliyyə məhsulları və fəaliyyətlər**




**İnvestisiya şirkətlərində sosial məqsədlərin qərarvermə proseslərinə inteqrasiyası üzrə yanaşmalara, əsasən, ayrı-ayrı təşəbbüs və məhsullar səviyyəsində rast gəlinir.** Belə təşəbbüslərə investisiya məhsulları və digər məhsul istiqamətləri daxildir. Sosial məqsədlərə yönəlmiş məhsul və ya maliyyələşmə fəaliyyətləri daha çox sosial və iqtisadi baxımdan həssas əhali qrupları, gender bərabərliyi və qadın sahibkarlığının dəstəklənməsi, habelə təhsil və səhiyyə istiqamətləri üzrə ayrı-ayrı təşəbbüslərlə ifadə olunur.

**İnvestisiya şirkətlərində təşkilatdaxili resurslardan səmərəli istifadə təcrübələrinə rast gəlinir.** Belə ki, 10 investisiya şirkəti kağız istifadəsinə qənaət, 8 investisiya şirkəti enerjiyə qənaət, 4 investisiya şirkəti isə suya qənaət üzrə hədəflərin müəyyən edildiyini bildirib. Bu, investisiya şirkətlərində resurslardan səmərəli istifadə ilə bağlı, əsasən, əməliyyat xarakterli tədbirlərin formalaşdığını göstərir.

## 4.2. Korporativ idarəetmə üzrə

**İnvestisiya şirkətlərində dayanıqlı maliyyə üzrə idarəetmə çərçivəsinin təşkili müxtəlif təşkilati yanaşmalar üzrə formalaşır.** Sorğu nəticələrinə əsasən İdarə Heyəti səviyyəsində cavabdeh şəxsin müəyyən edilməsi, ESİ məsələlərinə cavabdeh ayrıca struktur bölmənin mövcudluğu və funksiyanın autsorsinq əsasında təşkili təcrübəsi

mövcuddur **(Qrafik 21).** Ötən ilin nəticələri ilə müqayisədə idarəetmə çərçivəsinin qurulmadığını bildirən investisiya şirkətlərinin payında azalma müşahidə olunur.

**Qrafik 21. İnvestisiya şirkətlərində ESİ üzrə idarəetmə çərçivəsi**




İnvestisiya şirkətlərində dayanıqlı maliyyə investisiyaları, habelə iqlim dəyişmələri və ESİ risklərinin idarə olunması məqsədilə vəzifə, səlahiyyət və məsuliyyət bölgüsünün müəyyən edilməsi məhdud səviyyədə müşahidə olunur. Bununla yanaşı, Müşahidə Şurası üzvlərinin iqlim dəyişmələri və ESİ riskləri, o cümlədən imkanlar üzrə məlumatlılığının artırılması istiqamətində müsbət tendensiya müşahidə edilir. Sorğu nəticələri investisiya şirkətlərində idarəetmə səviyyəsində ESİ məsələlərinə prioritetliyin artdığını göstərir.

**Gender müxtəlifliyi üzrə göstəricilərdə disproporsiyalar mövcuddur.** Qadınların təmsilçiliyi ümumi işçi sayı üzrə 42%, departament və şöbə rəhbərləri üzrə bu göstərici 29%, Müşahidə Şurası və İdarə Heyəti üzrə isə orta hesabla 6% təşkil etmişdir. Son 12 ayda işə yeni qəbul olunanlar üzrə qadınların payı 36% olmuşdur **(Qrafik 22).** Bununla yanaşı, bir çox investisiya şirkətlərində Müşahidə Şurası və İdarə Heyəti üzvlərinin təyinatı zamanı gender müxtəlifliyinin nəzərə alınması ilə bağlı tələbin daxili sənədlərdə yer aldığı qeyd edilmişdir.

**Qrafik 22. Qadın əməkdaşların təmsilçiliyi**




**Fiziki məhdudiyyətli işçilərlə bağlı göstəricilər investisiya şirkətlərində inklüziv məşğulluq mühitinin və müvafiq iş şəraitinin yaradılması üzrə yanaşmaların digər sektor** iştirakçıları ilə oxşar səviyyədə olduğunu göstərir. Bu xüsusda fiziki məhdudiyyətli işçilərin ümumi işçi heyətində payı 1% təşkil etmişdir. Əlçatanlıq və iş şəraiti üzrə tədbirlər baxımından investisiya şirkətlərinin 4-ü fiziki infrastrukturun, 2-si iş vaxtı üzrə çevikliyin, 2-si isə digər uyğunlaşdırma tədbirlərinin tətbiq edildiyini qeyd etmişdir.

**İnvestisiya şirkətlərində ESİ və dayanıqlı maliyyə mövzuları üzrə institusional hazırlıq ilkin formalaşma mərhələsindədir**. Bir işçiyə düşən orta illik təlim saatı 5.4 saat, ESİ ilə bağlı təlim büdcəsinin ümumi təlim büdcəsində payı isə orta hesabla 9% təşkil etmişdir. Bununla yanaşı, yalnız 2 investisiya şirkətində iqlim dəyişmələri və ESİ risklərinin idarə edilməsi, dayanıqlı maliyyə alətləri və bu sahə üzrə adekvat insan resurslarının formalaşdırılması məqsədilə təlim proqramının müəyyən edildiyi qeyd edilmişdir. Eyni sayda investisiya şirkəti işçi rifahı və əmək şəraiti üzrə daxili siyasətin mövcud olduğunu, habelə ESİ, etik davranış və əmək hüquqları üzrə təlimlərin keçirildiyini bildirmişdir.

## 4.3. Risk idarəetməsi üzrə

**İnvestisiya şirkətlərində iqlim dəyişmələri və ESİ risklərinin müəyyənləşdirilməsi təcrübəsi formalaşma mərhələsindədir.** İnvestisiya şirkətləri iqlim dəyişmələri və ESİ risklərinin maliyyə bazarlarında idarə edilməsinin əhəmiyyətini, əsasən, orta səviyyədə qiymətləndirmişdir **(Qrafik 23)**. Bununla belə, fiziki və keçid risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi praktikası məhdud sayda investisiya şirkətində müşahidə olunur. Risklərin qısamüddətli, ortamüddətli və uzunmüddətli dövrlər üzrə əhəmiyyət dərəcəsinə dair cavablar da bu risklərin cari dövrdə nisbətən məhdud aktuallıq kəsb etdiyini, uzunmüddətli perspektivdə isə əhəmiyyətinin artacağının gözlənildiyini göstərir.

**Qrafik 23. İnvestisiya şirkətləri tərəfindən ESİ risklərinin idarə edilməsinin əhəmiyyətinin qiymətləndirilməsi**




**İqlim risklərinə həssas sektorların müəyyən edilməsi, risk iştahası limitlərinin formalaşdırılması və risklərin biznes qərarverməsinə inteqrasiyası investisiya şirkətlərində, əsasən, ayrı-ayrı institusional təşəbbüslər səviyyəsində müşahidə olunur.** Cavablar göstərir ki, ayrı-ayrı investisiya şirkətlərində enerji və kənd təsərrüfatı sektorları iqlim risklərinə həssas fəaliyyət sahələri kimi müəyyən edilsə də, risk

iştahası, stres-test, metodoloji alətlər və daxili hesabatlılıq üzrə sistemli inteqrasiya geniş tətbiq edilmir.

### 4.4. Hesabatlılıq üzrə

**İnvestisiya şirkətlərində dayanıqlılıqla bağlı strategiya, risk və imkanların açıqlanması sahəsində yanaşmaların hələ geniş formalaşmadığı müşahidə olunur.** Yalnız 1 investisiya şirkəti ayrıca dayanıqlı maliyyə və ya ESİ hesabatı formasında, 1 investisiya şirkəti isə illik maliyyə hesabatına inteqrasiya olunmuş şəkildə açıqlama verildiyini qeyd etmişdir. 2 respondent bu məlumatların yalnız Müşahidə Şurası ilə paylaşıldığını, 3 respondent isə digər yanaşmalardan istifadə etdiyini bildirmişdir.

Karbon emissiyalarının açıqlanması üzrə nəticələr də oxşar mənzərəni əks etdirir. Yalnız 1 investisiya şirkəti 2-ci əhatə dairəsinə aid emissiya məlumatlarını açıqladığını bildirmişdir. Respondentlərin 3-ü isə bu istiqamətdə fəaliyyətin planlaşdırıldığını qeyd etmişdir. Bu isə investisiya şirkətlərində emissiyaların ölçülməsi və açıqlanması təcrübəsinin hələ ilkin mərhələdə olduğunu göstərir.

## 5. Nəticə və prioritetlər

Sorğunun nəticələri göstərir ki, maliyyə sektorunda dayanıqlı maliyyə və ESİ amillərinin inteqrasiyası istiqamətində müəyyən irəliləyişlər müşahidə olunsa da, bu inkişaf alt sektorlar üzrə fərqli səviyyədə davam edir. Bank sektorunda strateji yanaşma, idarəetmə mexanizmləri, məhsul təşəbbüsləri və hesabatlılıq istiqamətində daha sistemli irəliləyiş qeydə alınmış, sığorta və investisiya şirkətlərində isə bu sahəyə diqqətin artdığı müşahidə olunmuşdur.

Mövcud nəticələr nəzərə alınaraq, ölkədə dayanıqlı maliyyə gündəliyinin daha sistemli şəkildə irəli aparılması məqsədilə Mərkəzi Bankın Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsinə uyğun olaraq, təşəbbüslərin davam etdirilməsi məqsədəuyğun hesab edilir.

### 5.1. Biznes strategiyası üzrə

• **ESİ amillərinin strateji sənədlərə inteqrasiyasının gücləndirilməsi**: Maliyyə institutlarında dayanıqlı maliyyə və ESİ amillərinin uzunmüddətli biznes strategiyalarına,

biznes planlarına və portfel yanaşmalarına daha sistemli şəkildə daxil edilməsi vacibdir. Bu istiqamətdə ayrıca daxili plan və yanaşmaların formalaşdırılması əhəmiyyətlidir.

• **Dayanıqlı maliyyə məhsul və xidmətlərinin inkişaf etdirilməsi**: Yaşıl kreditlər, dayanıqlılıqla əlaqəli kreditlər, yaşıl istiqrazlar, dayanıqlı sığorta həlləri, sosial məqsədli maliyyə məhsulları və dayanıqlılıqla əlaqəli investisiya alətləri üzrə təkliflərin genişləndirilməsi məqsədəuyğun hesab edilir.

• **Ekoloji və sosial amillərin qərarvermə proseslərinə inteqrasiyasının dərinləşdirilməsi**: Ekoloji risk və imkanların, eləcə də sosial prioritetlərin kredit, sığorta, investisiya və digər biznes istiqamətləri üzrə qərarvermə mexanizmlərində nəzərə alınmasının genişləndirilməsi zəruridir.

• **Resurs səmərəliliyi və institusional məlumatlılığın artırılması**: Enerji, su və kağız istifadəsi üzrə hədəflərin daha sistemli şəkildə müəyyən olunması, habelə ESİ prinsiplərinin korporativ mədəniyyətə və gündəlik əməliyyatlara inteqrasiyasının gücləndirilməsi vacibdir.

## 5.2. Korporativ idarəetmə üzrə

• **ESİ üzrə idarəetmə çərçivəsinin gücləndirilməsi:** Maliyyə institutlarında ESİ və dayanıqlı maliyyə məsələləri üzrə vəzifə, səlahiyyət və məsuliyyət bölgüsünün daha aydın müəyyən edilməsi, İdarə Heyəti və Müşahidə Şurası səviyyəsində cavabdehlik mexanizmlərinin formalaşdırılması zəruridir.

• **Daxili struktur və institusional koordinasiyanın inkişaf etdirilməsi:** ESİ məsələləri üzrə ayrıca struktur bölmə, cavabdeh şəxs və ya funksional işçi qrup modelinin formalaşdırılması bu sahədə fəaliyyətin daha əlaqəli şəkildə idarə olunmasına töhfə verə bilər.

• **İnsan kapitalının gücləndirilməsi**: İqlim dəyişmələri, ESİ riskləri, dayanıqlı maliyyə alətləri, emissiyaların ölçülməsi və hesabatlılıq istiqamətləri üzrə təlim proqramlarının genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

• **Gender müxtəlifliyi və inklüzivliyin təşviqi**: Qadınların ali idarəetmə səviyyələrində təmsilçiliyinin artırılması, gender müxtəlifliyinin daxili sənədlərdə nəzərə alınması, habelə

fiziki məhdudiyyətli əməkdaşlar üçün inklüziv iş mühitinin gücləndirilməsi məqsədəuyğundur.

• **ESİ amillərinin daxili siyasət və qaydalara inteqrasiyası**: Etik davranış, satınalma, mükafatlandırma, audit və digər daxili mexanizmlərdə ESİ amillərinin daha sistemli şəkildə nəzərə alınması vacib istiqamətlərdən biridir.

## 5.3. Risk idarəetməsi üzrə

• **İqlim və ESİ risklərinin müəyyənləşdirilməsi üzrə yanaşmaların inkişaf etdirilməsi**: Maliyyə institutlarında fiziki və keçid risklərinin müəyyənləşdirilməsi, daha həssas iqtisadi sektor və fəaliyyət növlərinin təsnifatı, habelə risklərin qərarvermə proseslərinə inteqrasiyası üzrə metodoloji yanaşmaların gücləndirilməsi zəruridir.

• **Daxili alət, təlimat və metodologiyaların hazırlanması**: ESİ risklərinin idarə olunması məqsədilə daxili təlimatların, monitorinq alətlərinin, əsas fəaliyyət göstəricilərinin və tədbirlər planlarının hazırlanması və tətbiqi genişləndirilməlidir.

• **Risk iştahası, ssenari təhlili və stres-test çərçivələrinin inkişaf etdirilməsi**: ESİ və iqlim risklərinin risk iştahası çərçivələrinə, ssenari təhlili və stres-test alətlərinə mərhələli şəkildə daxil edilməsi məqsədəuyğun hesab edilir.

## 5.4. Hesabatlılıq üzrə

• **Açıqlama təcrübələrinin genişləndirilməs**i: Maliyyə institutları tərəfindən ESİ strategiyaları, risklər, imkanlar, əsas fəaliyyət göstəriciləri və nailiyyətlər üzrə məlumatların ictimaiyyətə açıqlanması təcrübəsinin genişləndirilməsi vacibdir.

• **Açıqlama və hesabatlılıq çərçivəsinin gücləndirilməsi**: Banklar üzrə prudensial hesabatlılıq məqsədləri üçün dayanıqlılıqla bağlı məlumatların təqdim edilməsinə 1 aprel 2026-cı il tarixindən başlanılması, habelə dayanıqlılıq göstəricilərinin illik əsasda açıqlanmasına dair tələbin müəyyən edilməsi maliyyə institutlarında məlumatların toplanması, emalı və açıqlanması üzrə daxili mexanizmlərin gücləndirilməsini zəruri edir.

• **Emissiyaların ölçülməsi və açıqlanmasının təşviqi**: Emissiyaların ölçülməsi və açıqlanması üzrə institusional hazırlığın gücləndirilməsi vacibdir. Xüsusilə, banklar üzrə 1-ci, 2-ci və 3-cü əhatə dairəsi üzrə emissiyaların ölçülməsi və açıqlanmasının 1 yanvar

2027-ci il tarixindən məcburi xarakter alacağı nəzərə alınaraq, bu istiqamətdə zəruri daxili sistemlərin və məlumat bazasının formalaşdırılması əhəmiyyətlidir.

• **Daxili ESİ performansının qiymətləndirilməsi sistemlərinin yaradılması**: ESİ göstəricilərinin monitorinqi, hədəflərə nail olunmasının izlənilməsi və daxili hesabatlılığın gücləndirilməsi üçün uyğun qiymətləndirmə mexanizmlərinin formalaşdırılması vacib hesab edilir.